# S Ə N Ə T Ş Ü N A S L I Q

**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2024.2.102**

**KƏMALƏ ƏLƏSGƏRLİ***

## CAVANŞİR QULİYEVİN KİNO MUSİQİSİ

*Hazırkı məqalə bəstəkar C.Quliyevin kino musiqisinin tədqiqinə həsr olunub. Bəstəkarın yaradıcılığında geniş yer tutan tətbiqi musiqi sahəsini nəzərdən keçirmək üçün yazıçı Anarın ssenarisi əsasında çəkilmiş "Cavid ömrü" və "Sübhün səfiri" filmlərinin musiqisi ilk dəfə tədqiq olunur. Təhlillər göstərir ki, muğam intonasiyaları ilə zəngin olan "Cavid ömrü" və aşıq el havalarının ruhunda yazılan "Sübhün səfiri" filminin dramaturji xəttinin açılmasında musiqi leytmotivləri əsas rol oynayır. Filmlərin məzmunundan irəli gələrək "Cavid ömrü" filmində tarixi dram, "Sübhün səfiri" filmində isə nəqli hekayə tipli musiqi xüsusiyyətləri ifadə olunub. Bu cəhətləri musiqi parçalarının dəqiq yerləşdirilməsində, obrazların ifadəsində, musiqinin ümumilikdə təsir gücündə görmək mümkündür.*

***Açar sözlər:*** *Cavanşir Quliyev, kino, musiqi, leytmotiv, ssenari*

### Giriş

Tanınmış bəstəkar Cavanşir Quliyevin geniş yaradıcılıq fəaliyyətində tətbiqi musiqi janrı - dram tamaşalarına və kinofilmlərə yazılmış musiqi üstünlük təşkil edir. Bəstəkarın kino musiqisi bu janrın əsas cəhətlərini özündə cəmləşdirir. O, həm ekranı hiss edən, həm də obrazlı təfəkkürə malik olan bəstəkardır. Bu cəhətlər C.Quliyevin 50-dən çox kinofilmə musiqisində kamali qaydada öz əksini tapmışdır. Bəstəkarın yaradıcılığında geniş yer tutan kino musiqisi bu mövzunu bir məqalə hüdudlarında nəzərdən keçirilməsinə imkan vermir. Bu səbəbdən biz Cavanşir Quliyevin "Cavid ömrü" (2007) və "Sübhün səfiri" (2012) bədii filmlərinə bəstələnmiş musiqiyə nəzər yetirmişik.

Dram tamaşaları və kino musiqisini yaratmaq işində Cavanşir Quliyev bu filmlərə qədər artıq həm teatr, həm də kino musiqi sahəsində geniş bəstəkarlıq təcrübəsinə malik idi. Teatr tamaşalarından "Xırsquldurbasan" (M.F.Axundov); "Özümüzü kəsən qılınc", "Dar ağacı" (B.Vahabzadə), "Aydın" (C.Cabbarlı); "İydə ağacı", "Sevgililərin cəhənnəmdə vüsalı" (İ.Əfəndiyev) və s. qeyd etmək olar. C.Quliyevin film musiqisi əsasən tarixi dram janrına aiddir. Belə nümunələr içərisində "Topal Teymur" (H.Cavid) tarixi - bioqrafik drama musiqi maraq doğurur.

"Cavid ömrü" və "Sübhün səfiri" filmlərinin ssenari müəllifi görkəmli Azərbaycan yazıçısı Anardır. Azərbaycan bəstəkarlarının içərisində Cavanşir Quliyev Anarın əsərləri və ssenarisi əsasında çəkilmiş bir çox filmlərə musiqi bəstələyib. Yazıçının həyat və yaradıcılığına həsr olunmuş "Anarla üz-üzə" (rejissorlar R.Həsənoğlu və R.İsmayılov, 1989), onun müəllifi olduğu "Beşmərtəbəli evin altıncı mərtəbəsi" (1996) və ssenarisi əsasında çəkilmiş "Salur Qazanın evi talandığı boy" ("Dədə Qorqud" oğuznamələri əsasında, 2001) bədii filmə musiqini qeyd etmək olar.

### Əsas təhlil

Anarın müəllif ssenariləri bir qayda olaraq xarakter və janr etibarilə bədii cəhətdən yüksəkdir və bir azərbaycanlı kimi hər birimizi düşündürür. Söhbət başı min bəlalar çəkmiş Hüseyn Cavid ömrünü ekranlaşdırmaqdan və belə bir filmin ekran həllindən, onun musiqisindən gedir. "Cavid zəmanəsinin fövqündə dayanan bir sənətkar, şair, dramaturq idi. Müəlliflər də məhz bu ucalığı, bu yüksək mənəvi yaşantıları ekrana gətirməklə mənəvi dəyərlər barədə bizi düşünməyə sövq edirlər" [1,6].

"Cavid ömrü" tammetrajlı bədii filmi tarixi janrdadır. 2002-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən çəkilmiş filmin musiqi yazılışı, montaj və dublyaj Sankt-Peterburqda baş tutmuşdur. XX əsrin böyük Azərbaycan mütəfəkkir-şairi Hüseyn Cavidin (1882-1941) həyat və yaradıcılığından və onun əsas əsərlərindən bəhs edən bu filmi tarixi-bioqrafik dram adlandırmaq

olar. Quruluşçu rejissor Ramiz Həsənoğlunun çəkdiyi filmin aktyor tərkibi təkrarolunmazdır. Hüseyn Cavid rolunda xalq artistləri Rasim Balayev, İblis rolunda Məmməd Səfa çəkilmişlər.

Cavidin yaradıcı siması və onun faciəli əsərlərinin mürəkkəb fəlsəfi məzmunundan irəli gələrək filmin musiqisi üslub cəhətdən qəlizdir. Musiqi ekranda 1915-ci il mart günlərində Bakı komunnası və erməni silahlı daşnaq qüvvələri tərəfindən 30.000-dən artıq azərbaycanlını qətlə yetirdikləri kadrlarla tam şəkildə səsləşir.

Filmin musiqisini qəlizləşdirən üç əsas cəhət qeyd olunmalıdır: musiqidə faciəvilik, bəşəriliyin tərənnümü, münaqişəli dramaturgiya (xeyir və şər). Kinofilmin faciəvi musiqisi böyük dramaturq H.Cavidin fəlsəfi və tarixi faciələri, yazı ədası, özü və ailəsinin həyat faciəsi ilə üst-üstə düşür. Amma bu musiqiyə yalnızca faciəvi demək olmazdı. Bu musiqi faciəvi olduğu qədər də bəşəridir. Bəstəkar Cavanşir Quliyev H.Cavidin "Peyğəmbər", "Topal Teymur", "Xəyyam" kimi tarixi dramlarının faciəsini musiqinin gücü ilə çatdıra bilib. "Cavid ömrü" kinofilminin musiqisi filmin süjet xəttindən və şairin yaşadıqları faciədən irəli gələrək münaqişəlidir. Filmi əvvəldən sona kimi müşayiət edən musiqi ölməz şairin şeirləri ilə bərabər əsasda verilir. Hüseyn Cavidin "Mədəniyyət qılıncdan güclüdür" kəlamının ifadəsi filmin qayəsinin ana xəttini təşkil edir ("Turana qılıncdan daha kəskin, ulu qüvvət, yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!").

Bəstəkar filmə musiqini elə yaradıb, musiqi filmi əvvəldən sona qədər müşayiət edir, filmdə ilk səhnədən sonuncuya qədər səslənir. Gah irəli çıxır, gah arxa planda verilir. C.Quliyev müsahibələrinin birində qeyd edir ki, kinofilmə musiqi yazmaq – kollektiv işin iştirakçısı olmaq deməkdir. Yəni musiqi bəstələməklə bərabər, filmin tam montaj olunmayan, ərsəyə gəlməmiş mərhələsindən başlayaraq kinostudiyanın işçiləri (rejissor, aktyor, dublyajçı-aktyorlar) ilə birlikdə materiala baxış keçirmək lazım gəlir. Nəticədə məzmuna uyğun olaraq filmin musiqisi yaddaqalan olur.

Musiqi filmin dramaturgiyasına tam cavab verir və ona uyğundur. Hüseyn Cavid mövzusunda filmə musiqi yazmağın bəstəkar qarşısında duran çətinliyi bundadır ki, filmin içindəki musiqi müxtəlif olmalı idi və bəstəkar bu müxtəlifliyə nail olub. Filmin musiqisi bir tərəfdən xeyir, digər tərəfdən şər qüvvələri ifadə edir.

Filmdə müraciət olunan musiqi janrlarını daha ətraflı nəzərdən keçirək. Filmin musiqisi muğam intonasiyaları ilə zəngindir. Musiqi H.Cavidin üslubuna xas narahat düşüncələr, orijinal ədəbi monoloq, epitet və təkrirlər, təşbeh və metaforalarla səsləşir, onun şeirlərindəki çoxmənalı fikirlərin ifadəsinə xidmət edir. Filmə seyr etdikcə izləyici bu musiqidə Cavid ömrünə dair bədii və fəlsəfi ümumiləşdirmələr aparır. Cavidin müxtəlif şeirləri filmin ssenarisi, süjet xətti və musiqisi ilə əlaqədə təqdim olunur və sanki bir Cavid ömrünün faciəsini ekrandan deyil, yaxından izləyirsən.

Musiqi filmi tamamlayır, hər bir obrazın bitkin musiqi təqdimatı verilir: bütün surətlərin obrazlı ifadəsi vardır. İkinci dərəcəli obrazların musiqi səciyyəsi birbaşa deyil, dolayı yolla verilir. Bəstəkar qarşısında duran məqsəd həmin dövrün gərgin ab-havasını, repressiya illərinin bütün faciəsini əks etdirməkdən ibarət olmuşdur. Dövrü əks etdirmək məqsədi ilə filmin ssenarisinə incə mətləblər daxil edilib. Görkəmli Azərbaycan yazıçısı Cəfər Cabbarlının çoxumuzun bilmədiyi bəstəkarlıq istedadı ekrandan bizə çatdırılır. Məsələ burasındadır ki, Cəfər Cabbarlı yüksək musiqi duyumu ilə seçilən və muğamlarımıza dərindən bələd olan sənətkar idi. O, "Azad bir quşdum" mahnısının müəllifidir. Həmin mahnını C.Cabbarlının dostu Əfrasiyab Bədəlbəyli onun xahişi ilə nota yazmışdır. Qeyd edək ki, bu mahnı C.Cabbarlının "1905-ci ildə" dramında Sonanın ifasında səslənir.

Filmdə Mikayıl Müşfüqün yanıqlı "Həyat sevgisi" şeiri də C.Quliyevin musiqisinin sədaları altında eyni dərəcədə təsirli səslənir. C.Cabbarlı, H.Cavid, Ə.Cavad, M.Müşfiq kimi azərbaycanlı ziyalılarımızın çarəsiz vəziyyəti, sanki tezliklə vidalaşacaqları işıqlı dünyadan, yazıb-yaratmağa səsləyən əziz və doğma diyardan, bu şirin həyatdan məcbur ayrılmağı Müşfiq qələmindən süzülən incə mənalarla ifadə olunur.

Filmdəki əsas musiqi obrazlarının səciyyəsi lirik-dramatikdir. Buradan irəli gələrək musiqinin iki əsas istiqaməti vardır: lirika - xeyir və dramatizm - şər obrazları göstərir. Xeyir qüvvələr qismində vətən düşməni kimi həbs edilən Hüseyn Cavid, Əhməd Cavad (Axundzadə), Mikayıl Müşfiq, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyli və onun tələbəsi - Ərtoğrul Cavid (Hüseyn Cavidin oğlu), Cəfər Cabbarlı, Abbas Mirzə Şərifzadə, Müşkünaz Cavid, Turan Cavidin səciyyəsi verilmişdir.

Filmdə bəstəkar bir incə mətləbi də yaddan çıxarmamışdır: Hüseyn Cavid sürgündə olarkən

Üzeyir Hacıbəylinin Cavid ailəsinə köməklik göstərməsi səhnəsi təsirli şəkildə təqdim olunur. Filmdə Hüseyn Cavidin ədəbi mühitinə, onun qələm dostları və həmfikirləri - Əhməd Cavad, onun tələbəsi və davamçısı Mikayıl Müşfiqin səciyyəsinə böyük yer ayrılır.

Filmin musiqisində yaddaqalan həm də odur ki, burada leytmotivlərdən istifadə olunmuşdur. Əsas musiqi mövzuları filmin baş qəhrəmanı H.Cavidin, digəri isə İblisin leytmotividir. Əsərin qəhrəmanı H.Cavidin musiqi leytmotivini onun monoloqu da adlandıra bilərik. H.Cavidin leytmotivi film boyu bu əsas obrazı müşayiət edir və hər səsləndikcə başqa xalq çalğı alətinin (tar, balaban) ifasında təqdim olunur. Partiturada Cavanşir Quliyev tərəfindən bu leytmotivin iki versiyası (balaban və balabansız) mövcuddur.

Cavidin leytmotivi səslənərkən şairin ölməz şeirlərindən dillər əzbəri olmuş misralar (“Niyə getdin?”) bəstəkarın musiqisini tamamlayır. Şairin şeirlərindən misraların səsləndirilməsi ilə müşayiət olunan leytmotiv Cavidin gənclik illərini əks etdirir. Şair ömrünün gənclik illəri ekranda təsvir olunarkən onun ifadəli musiqisi İlahi eşqi tərənnüm edən, bütün təriqətlərdən üstün olan “Mənim tanrım gözəllikdi, sevgidi” şeiri ilə vəhdət təşkil edir.

İblis filmdə şər obraz kimi əsas planda göstərilir. İblisin timsalında Stalin, Hitler, Mircəfər Bağırov kimi şər qüvvələrin musiqi leytmotivi hərtərəfli ifadə olunur. Tarixi xronikal kadrlar musiqi fonunda göstərilir. “Filmdə Repressiya illərində 27 min 584 nəfər Azərbaycan vətəndaşının güllələnməsinə (onların içərisində 27 nəfər yazıçı olub) fərman imzalayan Stalin, Mircəfər Bağırov və onun sadiq erməni zəncirli itləri Qriqoryan, Yemelyanov, Sumbatov, eləcə də tarixdən bizə məlum olan digər şər obrazları - Hitler, Topal Teymur surətləri göstərilir” [2,15].

Filmin musiqisində İblisin münaqişəli leytmotivi gah zildə, gah da bəmdə ayrı-ayrı musiqi alətlərinin tembrləri ilə səslənir. İblisin leytmotivi Hüseyn Cavidin “İblis” əsərindən misralarla qüvvətləndirilir. Şairin “Nəfsin fəlakətləri” adlandırdığı İblisin leytmotivi Şər qüvvələrin ümumiləşdirilmiş obrazını ifadə edir. Şər obrazlarının təsviri Cavid tərəfindən qələmə alınan dörd aktlı faciəli-poetik “İblis” dramından ölməz kəlamlarla musiqi cəhətdən qüvvətləndirilir (“İblis nədir? Cümlə xəyanətlərə bais...Ya hər kəsə xain olan İnsan nədir? İblis!”).

Filmin kulminasiya zirvəsini təşkil edən “İstintaq” səhnəsi Şər qüvvələrin musiqi səciyyəsidir. Gərginliyin son həddə çatdırılması üçün Xalq komissarlığı sovetinin müstəntiqi ilə İblis eyni qiyafədə təqdim olunur. Filmin musiqisinin ən münaqişəli epizodları “Dopros” adlandırılan həmin bu səhnədə əksini tapıb. Dindirilmə, istintaq zamanı guya ki, Cavidin məzmunca çox “zəif” olan “Topal Teymur”, “Səyavuş”, “Xəyyam” əsərlərində azərbaycan dilini osmanlılaşdırmaq, Abbas Mirzə Şərifzadə kimi gənc artistləri türkləşdirməyə görə kəskin tənqidə məruz qalmış Hüseyn Cavidin pambıq, kolxoz, sosialist Azərbaycanına aid əsər yazmaması, sovet adamlarının obrazını tərənnüm etməməsi ona irad tutulur. O, türk üslubunda yazması, pantürkizm, panislamizm təşkilatının üzvü olması, burjua millətçisi, dini təbliğ etməsi ilə təqsirləndirilir, ittiham olunur. Halbuki Cavidin məqsədi yalnız Azərbaycan xalqını və onun zəngin mədəniyyətini tərənnüm etməkdən ibarət olmuşdur.

Ümumilikdə filmin musiqisi həbs olunan, tənələrə məruz qalan, ancaq ki, ləyaqətini itirməyən məğrur Cavid obrazını hərtərəfli ifadə edir. Onun düşmən qarşısında əyilmədən, oğluna vəsiyyət etdiyi “Qırıl, ancaq sınma!” deyən səhnəsi musiqi cəhətdən ən təsiredici epizodlardan biridir. Cavid ömrünün ən ağrılı-acılı günləri - istintaq səhnəsi musiqi cəhətdən nə qədər münaqişəlidirsə, onun ardınca gələn sürgün səhnəsi və bununla nəticələnən vəfatı filmin musiqisində ən təsiredici anlardır. Filmin sonunda ulu öndər Heydər Əliyevin Hüseyn Cavidin məzarının doğma Naxçıvan şəhərinə qaytarılması və doğma torpağa tapşırılması zamanı söylədiyi tarixi nitq nümayiş olunur. Ümummilli lider öz çıxışında Hüseyn Cavidin məzarının uzaq Sibirdən Naxçıvana gətirilməsinin çətinliyini qeyd edir. Bu sözlərin Cavanşir Quliyevin həzin musiqisinin fonunda səsləndirilməsi filmin həm ən təsirli səhnələrindən biridir, eyni zamanda məntiqli epiloqudur.

2012-ci ildə bəstəkar Cavanşir Quliyev “Sübhün səfiri” (2012) bədii filminə musiqi bəstələmişdir. “Film Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı ilə “Azərbaycanfilm kinostudiyasında” çəkilərək görkəmli Azərbaycan mütəfəkkiri, Şərqdə ilk dramaturq Mirzə Fətəli Axundovun (1812-1878) 200 illiyinə hər olunmuşdur” [3,24].

Filmin quruluşçu rejissoru Ramiz Həsənoğludur. Filmin aktyor tərkibi təkrarolunmazdır - Mirzə Fətəli Axundov rolunda xalq artisti Rasim Balayev, Abbasqulu ağa Bakıxanov rolunda xalq

artisti Fəxrəddin Manafov, Tubu xanım rolunda Məlahət Abbasova çəkilmişdir. "Sübhün səfiri" tammetrajlı iki seriyalı bədii filmi tarixi janrdadır. "Film XIX əsrin II yarısında yazıb-yaratmış milli dramaturgiyamızın banisi, "Azərbaycan milləti" ifadəsini ədəbiyyatda ilk dəfə işlədərək "millət" məvhumunu dilimizə gətirən Mirzə Fətəli Axundovun həyat və yaradıcılığına həsr olunmuşdur" [4,10].

Böyük dramaturqun həyat və yaradıcılığından, onun əsas əsərlərindən bəhs edən filmdə tarixi-bioqrafik dram ölməz yazıçı ömrünün üç dövrünü (uşaqlıq, gənclik və qocalıq) əhatə edir. Buradan irəli gələrək filmin musiqisi nəqli hekayə janrına aiddir. Musiqi filmi əvvəldən sona qədər müşayiət edir, ilk səhnədən sonuncuya qədər səslənir. Gah irəli çıxır, gah arxa planda verilir. Həm xarakterinə, həm də janrına görə filmin musiqisi müxtəlifdir. C.Quliyev müsahibələrinin birində qeyd edir ki, filmə musiqi yazmağın bəstəkar qarşısında duran çətinliyi bundadır ki, filmin musiqisi darıxdırıcı olmamalıdır. Bunun üçün bəstəkar müxtəlif musiqi kollektivləri ilə işləməlidir. Hər musiqi epizodu üçün başqa bir musiqi kollektivi ilə əməkdaşlıq etməlidir. Filmdə bütün bu cəhətlər öz həllini tapıb. Azərbaycan Dövlət Simfonik Orkestri, Azərbaycan Dövlət qədim musiqi alətləri ansamblı filmin musiqisi üzərində işləyiblər.

Filmin musiqisi millidir, muğam intonasiyaları ilə zəngindir. Bəstəkar tərəfindən muğama yaradıcı münasibət özünü göstərir. Filmin əvvəlindəki balaca Fətəlinin anası ilə karvan səhnəsi səhranı təsvir edən klassik musiqi örnəyidir. M.F.Axundovun anadan olduğu doğma Şəki mühiti, gözəl və koloritli Xan sarayı, Novruz bayramı səhnəsi bu filmin musiqisini həm görüntü cəhətdən, həm də musiqi baxımdan cəlbedici edir.

Filmə musiqinin elə epizodları vardır ki, Cavanşir Quliyev M.F.Axundovun yarızarafat - yarıgeçək tərzini ifadə edə bilib. Çünki onun özünün bir yaradıcı insan kimi təbiəti M.F.Axundovun üslub tərzinə yaxındır. Nəticədə elə bir tərz ərsəyə gəlib ki, həm dramaturq, həm də bəstəkarın yaradıcı təbiətini birləşdirən yumorun satira qarışıq ifadəsi ilə eynilik yaranıb. Bu cəhət filmin musiqisinin ən diqqətəlayiq tərəflərindən biridir.

Bütün bu görüntünü sözsüz ki, aşıq musiqi üslubu olmadan təsəvvür edə bilmərik. Filmdə xalq aşıq üslubu ruhunda musiqi epizodları da üstünlük təşkil edir. Aşıq tərzi Cavanşir Quliyevin bəstəkar dəst-xəttinə xasdır. O, aşıq musiqisi ilə bağlı çalışan bəstəkardır, özü gözəl saz çalır, bir ifaçı kimi filmin musiqisinin ərsəyə gəlməsində iştirak edib.

Üslub təmayülü baxımından bəstəkarın üslubunu neofolklor cərəyanına aid etmək olar. 1988-ci ildə Cavanşir Quliyev "Aşıq Qərib" filminə (rejissor S.Paradjanov) yazdığı musiqidə də aşıq üslubuna müraciət etmişdir. Onun yaradıcılığında Qərbi Avropa musiqi alətləri ilə yanaşı bizim xalq çalğı alətlərimiz (ilk növbədə saz) bərabər əsasda təqdim olunur. "Sübhün səfiri" filminə bəstələdiyi musiqi parçalarında saz alətindən istifadə edən bəstəkar bir sıra kamera-instrumental əsərlərində bu aləti tətbiq edir. Saz və violino üçün Sonata, fleyta, saz və violonçel üçün "Karvan" belə əsərlərdəndir.

Sazla yanaşı filmin musiqisində digər xalq çalğı alətlərindən istifadə olunub: tar, kamança, zurna, balaban, nağara və s. Filmdəki musiqi fraqmentlərindəki klassik saz aşıq ifası deyil, müəllifin sazda öz bəstəsidir, onun özünün təxəyyülü və fantaziyasının məhsuludur.

Filmin musiqisi üç istiqamətdə verilib : M.F.Axundovun həyat və yaradıcılığını əks etdirən iki leytmotiv; onun əsas əsərlərinin baş qəhrəmanlarının musiqi portretləri (Şah Abbas, Molla İbrahim kimyagər, Lənkəran xanının vəziri, Dərviş Məstəli şah) və dramaturqu əhatə edən mühitin təsviri buna misaldır. Həmin dövrün müsəlman musiqi məclislərində görkəmli xanəndə Səttarın ifasına verilən ehtiram filmin "Muğam səhnəsi"ndə öz əksini tapır. Azərbaycanda fəaliyyət göstərən rus siyasi dairələrin (Bestujev, Qriboyedov) mühitini təsvir etmək üçün vals janrından istifadə olunur.

Leytmotivlərdən istifadə edərək bəstəkar baş qəhrəman M.F.Axundovun iki leytmotivini yaradır. Film boyu bu iki mövzu müxtəlif musiqi alətlərinin ifasında səslənərək hadisələri əvvəldən sona kimi müşayiət edir. Birinci leytmotiv tarın solosunda təqdim olunub, mahnıvaridir. Bu mövzu Cavanşir Quliyevin yaradıcılığında mahnı janrının əhəmiyyətindən bəhs etməyə bizə imkan verir. Bəstəkarın təkrarolunmaz mahnı yaradıcılığına xas mahnıvarilik bu leytmotivdə üstünlük təşkil edir. Axundovun ikinci leytmotivi daha təsirlidir, violino alətinin solosuna həvalə olunub. Onun uşaqlıq çağlarında anası ilə keçirdiyi xoşbəxt günləri, eləcə də oğlu ilə ölümqabağı sonuncu dəfə görüşməsi səhnəsində, filmin sonunda Axundovun vəsiyyəti səhnəsində səslənir.

Bu iki leytmotivdən başqa, Axundovun əsas əsərlərinin baş qəhrəmanlarının musiqi portretləri də filmdə özünə yer alıb. Azərbaycan tarixinin şanlı səhifələrindən birini təşkil edən Səfəvi dövlətinin başçısı Şah Abbasın musiqi səciyyəsini nümunə göstərə bilərik. Bu portreti M.F.Axundov "Aldanmış kəvakib" əsərində əks etdirib. Cavanşir Quliyev filmin Şah Abbasla bağlı hissəsində bu obrazın tarixi əhəmiyyətini müvafiq musiqi mövzu ilə ifadə edib. Həmin əsərdən başqa bir personajın musiqi səciyyəsi də vardır ki, bu da "Molla İbrahim kimyagər" adlı səhnədir. Qeyd edək ki, Azərbaycan musiqisində fantastik mövzuda musiqi nümunələrinin sayı bir o dərəcədə çox deyil və haqqında danışdığımız nümunə bu mənada maraq doğurur. "Lənkəran xanının vəziri", "Dərviş Məstəli şah" – bu səhnələrin musiqisində Cavanşir Quliyevin iti, sərrast musiqi dili, yumor hissi, yumorun satira qarışıq ifadəsi, mübariz, qətiyyətli həyat mövqeyi özünü göstərir və bu cəhətlər bəstəkar tərəfindən M.F.Axundovun əsərlərini dərindən duymasını göstərir.

**Nəticə**

Anarın ssenari müəllifi olduğu "Cavid ömrü" və "Sübhün səfiri" filmlərinə bəstələnmiş musiqi ilə C.Quliyev tətbiqi musiqi sahəsində təcrübəli bəstəkar kimi qarşımızda durur. Filmlərin məzmunundan irəli gələrək "Cavid ömrü" filmində tarixi dram, "Sübhün səfiri" filmində nəqli hekayə tipli musiqi xüsusiyyətlərini ifadə edilib. Bunu biz musiqi parçalarının filmlərdə dəqiq yerləşdirilməsində, obrazların hiss və duyğularının musiqidə ifadəsində, musiqinin ekrandan tamaşaçıya təsir gücündə görürük. C.Quliyevin ilk nəzərdə bu kinofilmlərə bəstələdiyi musiqi nümunələri çox sadə təsir bağışlayır. Mövzulardan çoxu geniş nəfəsli melodiyalardan, rəngarəng müşayiətdən məhrum olsa da, bu sadəlik bizim dupduru ulu el havalarımızın sadəliyidir. C.Quliyev xalq musiqisini gözəl bilir. Qeyd edək ki, Şəki musiqi məktəbini bitirdikdən sonra ilk əvvəl o, Konservatoriyada tar sinfinə daxil olmuşdur. Ona görə də milli musiqimizin bəstəkar yaradıcılığında tətbiqi Cavanşir Quliyevin yaradıcılığında hər zaman ana xətti olub. Onun kino musiqisini dinləyərkən xalq musiqi sənətini özümüz üçün sanki yenidən kəşf edirik. Bəstəkar kinofilmlərə musiqidə doğma diyarımızın müxtəlif guşələrində eşitdiyimiz el nümunələrindən qaynaqlanaraq sitat gətirmədən təbii, əsl bəstəkarcasına ümumiləşdirə bilib.

Bəzən bir çox bəstəkarların yaradıcılığında milli musiqi xüsusiyyətlərinin tətbiqi müəyyən qədər süni təsir bağışlayır. C.Quliyevə isə folklor duyumu təbiətən xasdır. Azərbaycan musiqisinə yanaşmasını o, öz fərdi duyumu, ifaçılıq qavrayışları ilə müdrik xalq ozanı kimi təqdim edir. Onun xalq musiqisinin vurğunu olduğunu duyursan, səmimiliyini hiss edirsən.

Digər tərəfdən biz Cavanşir Quliyevin kinofilmlərə musiqisini həm də Anarın ssenarisinin məzmununa cavab verən və filmin dramaturji həllinə xidmət edən bir musiqi nümunələri olaraq səciyyələndirməliyik. Əvvəldə qeyd olunduğu kimi, bəstəkarın yazıçı ilə tək bu işi deyil, kinoda bir çox başqa əməkdaşlığı da olmuşdur. "Anarla üz-üzə", "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Dirsə xan oğlu Buğac boyu", "Qəm pəncərəsi" filmlərini yada salmaq kifayətdir. Bu bir daha göstərir ki, yazıçı-ssenarist və bəstəkar-ifaçı dialoqu geniş ekranda baş tutmuş və öz həllini tapmışdır. C.Quliyevin yaradıcılıq irsində kino musiqi janrı onun əsərləri içərisində bədii cəhətdən kamil nümunələrdir. Yaradıcılığın bu sahəsində zəngin təcrübə toplamış bəstəkar kinonun, ekran-efirin ritmini duymağı bacaran ustad kimi qarşımızda durur.

**ƏDƏBİYYAT**


1. "Cavid ömrü": ilk baxış, ilk təəssürat // Xalq qəzeti.- 2008.- 14 mart.- s.6.
2. "Cinema Debüt" // "Cinema News" jurnalı.- 2008.- iyun.- səh.15.
3. Qasımzadə İ. Sübhün səfiri (M.F.Axundovun 200 illik yubileyi ilə əlaqədar rejissor Ramiz Həsənoğlunun) quruluşunda hazırlanan eyniadlı film haqqında // "525-ci qəzet", 2013, 1 mart, s.24-25
4. Əlibəyli B. Trilogiyadan... "Xəmsə"yə: Anar və R.Həsənoğlunun "Sübhün səfiri" filmi haqqında qeydlər // "525-ci qəzet", 2013, 2 fevral, s.10



***Üzeyir Hacıbəyli adına**
***Bakı Musiqi Akademiyasının**
***"Musiqi tarixi" kafedrasının professoru,**
***sənətşünaslıq üzrə elmlər doktoru**
***E-mail:aleskerli-kamalia@rambler.ru**

**Kamala Alasgarli**

**FILM MUSIC OF JAVANSHIR GULIYEV**

This article is devoted to the study of film music by composer J. Guliyev. For the first time, the music for the films "The life of Javid" and "The ambassador of the dawn" according to the script of the writer Anar is being examined with the aim of a comprehensive consideration of the field of applied music, which occupies a large place in the composer's work. The study shows that musical leitmotifs play a key role in revealing the dramatic lines of films. The music of "The life of Javid" is dominated by the intonation features of mugham; the music for the film "The ambassador of the dawn" is written in the spirit of ashug tunes. The film "The life of Javid" expresses historical drama, and "The ambassador of the dawn" is a type of musical narrative. These aspects can be seen in the precise placement of the main musical themes, the expressiveness of the imagery, and the impact of the music in general.

**Keywords:** *Javanshir Guliyev, cinema, music, leitmotif, screenplay*

**Камаля Алескерли**

**КИНОМУЗЫКА ДЖАВАНШИРА ГУЛИЕВА**

Настоящая статья посвящена изучению киномузыки композитора Дж. Гулиева. Впервые исследуется музыка к фильмам «Жизнь Джавида» и «Посол зари» по сценарию писателя Анара с целью всестороннего рассмотрения области прикладной музыки, занимающей большое место в творчестве композитора. Исследование показывает, что музыкальные лейтмотивы играют ключевую роль в раскрытии драматургических линий фильмов. В музыке «Жизнь Джавида» преобладает интонационные особенносто мугама, в то время как музыка к кинофильму «Посол зари» написан в духе ашугских напевов. В фильме «Жизнь Джавида» выражена историческая драма, а «Посол зари» - тип музыкального повествования. Эти аспекты можно увидеть в точном размещении основных музыкальных тем, в выразительности образов, а также в воздействии музыки в целом.

**Ключевые слова**: *Джаваншир Гулиев, кино, музыка, лейтмотив, сценарий.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 12.04.2024**
**Son daxilolma tarixi:22.05.2024**